# Milli ideya XXI əsrin yeni geosiyasi çağırışları fonunda



VI MƏQALƏ

## Milli ideya 2020-ci il Zəfərindən sonra

2020-ci il Vətən müharibəsində Azərbaycanın Zəfəri o dərəcədə əhəmiyyətli və təsirli oldu ki, postmüharibə mərhələsinin asan keçməyəcəyi öncədən bəlli idi. Burada əsas ağırlığın informasiya və ideologiya üzərinə düşəcəyini təxmin etmək olardı. Çünki Azərbaycan müharibə paradiqmasına əsaslanan dövlət deyildir və ərazi bütövlüyü bərpa ediləndən, suverenlik isə tam təmin olunandan sonra bizimlə dost olmaq istəməyən məlum dairələrin əsas gücü informasiya və ideologiyaya verəcəyi daha çox gözlənilən idi. Bu prosesin yeni geosiyasi çağırışlar fonunda vüsət alması isə ayrıca mürəkkəb situasiya yarada bilərdi. İndi baş verənlərin təhlili göstərir ki, gözlənilən proqnozlar özünü doğruldur. Burada Azərbaycanın ikiqat informasiya və ideologiya dalğalarının təsiri altında mübarizə apardığı özünü göstərir.

## İnformasiya dalğası

Vətən müharibəsindən sonra müxtəlif istiqamətlərdən Azərbaycanı yolundan sapdırmaq məqsədi ilə aktiv informasiya dalğası başladı. O, iki istiqamətdə özünü daha çox göstərir.

Birinci istiqamət iqtidarı xalqın gözündən salmaqla bağlıdır. İkinci istiqamət isə Vətən müharibəsindən sonra seçilən kursa qarşı şübhələr oyatmaqla əlaqəlidir.

Onların ortaq hədəfi də vardır – real olmayan informasiyaları yaymaqla (əsasən sosial şəbəkələrdə) gerçəyi gizlətmək, vətəndaşlarda özünə, ətrafına və bütövlükdə cəmiyyətə qarşı inamsız münasibət formalaşdırmaq. Bunun üçün etnik, mədəni, məişət, tarixi, sosial mühit, mənəvi-əxlaqi dəyərlər və s. aspektlərdə yalan informasiyaları tez-tez "neytral mövqe" kimi dövriyyəyə buraxmaq kimi hiyləgər yol seçmişlər. Daha doğrusu, bir sıra xüsusi peşəkar dairələr (məsələn, USAID və ona bənzər digər qurumlar) "faktlara əsaslanan həqiqətlər" kateqoriyası adı altında çaşdırıcı informasiyaları daha intensiv olaraq cəmiyyətə sırımaqdadırlar.

Bu prosesdə yad dairələrə bir sıra KİV orqanları qulluq göstərməkdədir. Onlar "milli media" adı altında ayrı-seçkilik, cəmiyyətin əsas etnosunun təhrif olunmuş kimliyini yaratmaq, müxtəlif ziyalılar, siyasilər və hətta hakimiyyətdə təmsil olunanlar arasında əsassız intriqalar törətmək və sair kimi anti-Azərbaycan xarakterli "obyektiv" informasiyaların yayımını çoxlatmaqdadırlar.

Bəzən onları "5-ci kolon", "6-cı kolon" və ya neçənci kolon kimi xarakterizə edirlər. Lakin gerçəklikdə vəziyyət "kolonvari" deyildir. Çünki o bölgü artıq köhnəlmişdir, keçmişdə qalmışdır. Bəs onda 2020-ci il Zəfərindən sonra Azərbaycana qarşı tətbiq edilən bu "yumşaq informasiya gücü"nü necə xarakterizə etmək olar?

## "Posthibrid informasiya"

İndi bizim ölkəyə qarşı informasiya təsirlərini məhz "posthibrid informasiya müharibəsi" kimi xarakterizə edə bilərik. Bu, "hibrid informasiya müharibəsi"ndən sonrakı mərhələdir. Əsas əlamətləri aşağıdakılardır:

Birincisi, "posthibrid informasiya"nın hədəfi açıq olmur – o, müxtəlif hədəfləri eyni anda "vura biləcək maska" altında yayılır. Nümunə: "Filan tarixçi milli kimliyi yeni "faktlar" əsasında araşdırmışdır. Məlum olmuşdur ki, burada hələ çox qaranlıq məqam vardır". Məqamlar kimi də yad mənbələrdə yer almış informasiyaların anti-Azərbaycan ruhda "elmi izahı" olur. Burada açıqca "Azərbaycan toplumunun böyük əksəriyyəti türkdürmü?" sualı qoyulmur. Əvəzində dolayısı ilə "yeni obyektiv faktlar" əsasında bütün hallarda bir cavaba apara biləcək formada informasiya verilir. Həmin öncədən hazır cavab belədir: "Azərbaycan toplumu hələ özünün kim olduğunu bilmir". Və bundan sonra əsas məqsəd üstüörtülü ifadə edilir: "Azərbaycan türk dövləti deyil"! Həm də bunu ağıllarınca ehtiyatla və "tam faktiki və məntiqi baza" hazır olandan sonra yenə də birbaşa deyil, müxtəlif kontekstlərdə deyirlər.

Bu, indi Azərbaycanda yayılan oxşar xarakterli informasiyalardan bəlkə də ən sadələrindən biridir. Bəzən 3-4 qat gizlədilmiş və "tarixi, mədəni, əxlaqi məzmunu aydın olan" təxribat xarakterli, sırf anti-Azərbaycan ruhlu informasiyaları müxtəlif "milli" şəbəkələr vasitəsilə yaymağa çalışırlar.

İkincisi, "posthibrid informasiya" ən yeni texnologiyaların fonunda təqdim edilir. Yəni hansısa süni intellektin "çıxardığı məntiqi nəticə" olaraq cəmiyyətə sırınır. Nümunə: süni intellektə hansısa etnos və ya cəmiyyət haqqında sual verilir və onun cavabı "neytral, obyektiv statusunda" yayılır. Bundan, adətən, tarixi keçmişin təhrif olunmuş obrazını yaratmaq məqsədilə konkret sərkərdələr, dövlət başçıları, hökmdarlar, siyasi liderlər barədə arzu etdikləri məzmunda məlumat yaymaq üçün istifadə edirlər. Və yaxud "posthibrid informasiya" adi məlumat kimi primitiv məzmunda yayıla bilər.

Məsələnin milli təhlükəsizliklə bağlı çox əhəmiyyətli aspekti də mövcuddur. Dünya miqyasında bu barədə Henri Kissincer yazmışdır. Azərbaycanın da milli təhlükəsizliyi üçün risklər yarada bilən və süni intellektin funksional imkanlarına əsaslanan, bir sıra kənar dairələrə məxsus avtonom informasiya-idarəetmə sistemləri vardır. Onların mümkün təsirlərinin neytrallaşdırılması milli ideya kontekstində ayrıca bir fəaliyyət tələb etməkdədir.

Üçüncüsü, "posthibrid informasiya" müharibəsinin konkret "səngəri" yoxdur – o, bütövlükdə cəmiyyəti, o cümlədən, onun mental sahəsini hədəfləyə bilər. Burada onun "kolonluq" xüsusiyyəti pozulur, ümumiyyətlə, hər yerdə və hər zaman məhdudiyyətsiz qaydada təsir potensialına malikdir. Bu üsuldan, adətən, dövlətin görkəmli xadimlərinə, yazıçılara, şairlərə, alimlərə, bütövlükdə ziyalı təbəqəsinə, xalqın qəhrəmanlarına qarşı istifadə etməyə çalışırlar. Burada əsas məqsəd Azərbaycan cəmiyyətini özünün gözündən salmaqdan ibarətdir.

## Asimmetrik ideoloji təsirlər

Asimmetrik ideoloji təsirlər posthibrid informasiya müharibəsinin daha sistemli və çoxpilləli mərhələsidir. Burada asimmetriklik ideoloji təsirin fərqli kəsimlər üçün fərqli təsir gücü yaratması ilə bağlıdır. Yəni bir ideoloji informasiya elementi sosiumun hansısa kəsimi üçün çox, digəri üçün isə az həssas ola bilir. Lakin bu qeyri-xəttilik başqa ideoloji elementlərlə balanslaşdırılır. Həmin balanlaşdırma bir kontekstdə reallaşmır – fərqli situsiyalarda özünü göstərdiyinə görə, onu adi gözlə görmək mümkün olmur. İdeoloji element ətrafında elə mühit yaradırlar ki, ziddiyyəti anlamaq çox çətin olur. Yalnız arxa planda olan müxtəlif parçaları birləşdirəndə ümumi mənzərə görünür.

Nümunə: "Azərbaycanı "İbrahim uşaqları" sazişinə dəvət edirlər" informasiyası ətrafında "Azərbaycan – ABŞ – İsrail strateji tərəfdaşlıq üçbucağı yaradıla bilər" ideoloji mühitini formalaşdırırlar. Bu iki informasiya, üzdə, doğrudan da, normal və hətta faydalı görünür. Çünki İsrail – Azərbaycan münasibətləri yaxşıdır, qarşılıqlı faydalılığa əsaslanır, hər iki dövlət öz maraqlarını gözləməklə əməkdaşlığa doğru can atır. Burada anormal nə var ki? Və yaxud bütün dünya etiraf edir ki, ABŞ yeni dünya nizamı yaradır və D.Tramp Azərbaycana önəm verir. Həqiqətən, çox gözəl! Buna görə də Azərbaycan – ABŞ – İsrail strateji üçbucağı lazımlı görünür. Lakin...

Birincisi, Azərbaycan 2020-ci ildən sonra öz geosiyasi seçimini etmişdir və həmin istiqamətdə fəallıq və fədakarlıqla addımlar atır. Həmin seçim belədir: "Biz türk ailəsinin üzvüyük və Türk Dövlətləri Təşkilatının (TDT) inkişafı üçün çalışacağıq"! Bu seçimlə "İbrahim uşaqları" proqramı nə dərəcədə uyğunlaşır? Üstəlik, həmin proqramda TDT-nin 3 üzvü – Azərbaycan, Qazaxıstan və Özbəkistanın adını hallandırırlar. Bu türk dövlətləri Türkiyə ilə bütün sahələr üzrə strateji müttəfiqlik sazişləri imzalamışlar. İsaraillə Türkiyənin münasibətləri isə hamıya məlumdur.

Deməli, məsələ asan, sadə və birmənalı deyildir. Hətta, deyərdim ki, xeyli kateqorik və sərtdir: "TDT, yoxsa "İbrahim uşaqları"? Düşündürücüsü odur ki, bu suallar Azərbaycanda özünü "milli" təqdim edən bir sıra saytlarda Azərbaycan jurnalistlərinin yazdıqları məqalə və ya informasiya blokunda ifadə edilən məzmunların fonunda yaranır. Aydın görünür ki, müəyyən ideoloji təbliğatı "Azərbaycanın maraqları" qismində üstüörtülü şəkildə yaymaq cəhdləri vardır. Daha düşündürücüsü: Azərbaycan toplumunda, media ilə bağlı qurumlarda bu vəziyyətə reaksiya hiss edilmir. Yanlışlıq varsa, öncədən üzr istəyirəm!

Başqa bir nümunə kimi son zamanlar dillə bağlı müşahidə edilən mübahisələri göstərə bilərik. Düzdür, indi o, bir qədər səngimişdir. Lakin ideoloji hədəf baxımından hələ də aktual olaraq qalır. Bu prosesdə də azərbaycançılıq, vətənçilik, dövlətçilik və millliliklə dövlət dilinin vəhdətini ya görə bilməyənlər, ya da görməzlikdən gələnlər fəal olmağa çalışırlar.

Deyirlər ki, rus dilində təhsil almaq nəinki zərərlidir, hətta, əsl azərbaycanlı elə onlardır! Təbii ki, məsələ konkret rus dilini bilməyə münasibətlə qətiyyən əlaqəli deyildir. Anormal olanı hətta deputat səviyyəsində rus təhsili almağı prioritet kimi təqdim etməyə çalışanların olmasıdır. Əlbəttə, rus dilində təhsil almaq olar, lazımdır da. Lakin etiraz buna deyil: Azərbaycanda hansı mentalitetin dominantlığının doğru olması ilə bağlıdır! Dövlət dilində təhsilin savadlılıq, yaxşı mütəxəssis olmaq, əsl milli olmaq nümunəsinə çevrilməsi zəruridir! Heç bir yad dil bu kontekstdə dövlət dilini əvəz edə bilməz və etməməlidir!

## Həssas məqamlar

Vurğuladığımız informasiya və ideologiya xarakterli məqamlar bir daha göstərir ki, "Azərbaycanın Zəfəri çox daşları yerindən tərpətmişdir"! Bunun fonunda aydın olur ki, ideoloji mübarizə nəinki səngimişdir, hətta yeni səviyyədə daha da kəskinləşmişdir. Bunlar yeni çağırışların müxtəlif aspektlərdə təzahürləri kateqoriyasına daxildir. Bir tərəfi isə milli ideyaya bağlıdır. İndi söhbət elə geosiyasi seçimdən gedir ki, bütün maddi və maliyyə faydalarından daha üstün olan milli maraqların Azərbaycanın müstəqil dövlət olaraq regionlararası miqyasda söz sahibi olması təmin edilməlidir. Bunun kökündə düzgün geosiyasi seçim dayanır. Bu seçimi rəsmi Bakı qətiyyətlə etmişdir: TDT-yə alternativ yoxdur!

Deməli, açıq və ya gizli, məhdud və ya geniş əhatədə cəmiyyət özündən asılı olmayaraq, böyük informasiya və ideologiya savaşının mərkəzindədir. "Posthibrid informasiyalar", üstüörtülü ideoloji elementlər, şirnikləndirici geosiyasi konfiqurasiyalara dəvət və digər cəhdlər güzəştsiz və sərhəddsiz savaş meydanı açır. Biz oradayıq, tarixi mübarizəmizin strateji baxımdan ən həssas mərhələsindəyik. Bu prosesdə Prezidentimizə fəal surətdə tam dəstək vermək məsuliyyəti içərisindəyik!

Vurğuladığımız kontekstdə XXI əsrin yeni çağırışları fonunda milli ideyanın strateji rolunu ayrıca dərk etməyimiz gərəkdir. Milli ideya elə məzmun almalıdır ki, həm milli ideologiya olan azərbaycançılığı, həm də mulitkulturalizmi maksimum inkişaf etdirməyə təkan versin.

Bununla yanaşı, Azərbaycanın regionlararası miqyasda aparıcı rolu təmin edilməlidir. Milli ideya vurğulanan bu iki daxili və xarici miqyaslarda Azərbaycanın müstəqil güclü dövlət kimi qarşısında duran vəzifələri həyata keçirməyə əsas yaradan baza ideya olaraq məzmunlaşmalıdır.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

Xalq qəzeti .- 2025.- 4 aprel (№ 64).- S.6.